**“Əsrin müqaviləsi”ndə qarşıya qoyulmuş vəzifələrə layiqincə əməl edilməsi, yeni neft strategiyamızın uğurla həyata keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin əsas qarantlarından biridir...**

**Heydər ƏLİYEV,**
**ümummilli lider.**



# Azərbaycanın iqtisadi və siyasi uğurlarının təməl daşı

## *“Əsrin müqaviləsi” müstəqil Azərbaycanın iqtisadi inkişafının əsasıdır*



**Aydın QASIMOV,**
**hüquq elmləri doktoru, professor.**

Bu gün ölkəmizdə həyata keçirilən səmərəli iqtisadi islahatlar kursu respublikamızı sürətli inkişaf yoluna çıxarıb. Yerli və xarici investisiyalar, müasir texnologiyalar, rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin yaradılması infrastrukturun yeniləşməsinə, yeni iş yerlərinin açılmasına imkan vermişdir. Azərbaycan iqtisadiyyatı son illər daha da sürətlə və dinamik inkişaf etməkdədir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən təməli qoyulan və möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən məqsədyönlü və çevik iqtisadi islahatlar ölkəmizdə köklü dəyişikliklərə səbəb olmuşdur. Müstəqil respublikamız iqtisadi inkişaf sürətinə görə nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada lider dövlət kimi tanınır. Düşünülmüş xarici siyasətimizin uğurlu olması və daxili siyasətlə uzlaşması ölkəmizin hərtərəfli inkişafında, qüdrətli bir dövlətə çevrilməsində mühüm rol oynayır. Azərbaycan özünün müstəqil siyasəti, sanballı xüsusi çəkisi ilə artıq regional çərçivədən çıxaraq dünyadakı proseslərə təsir etmək, aparıcı mövqe nümayiş etdirmək iqtidarındadır. Ölkəmiz dünyadakı mövqelərini son illər daha da möhkəmləndirmişdir.

İqtisadi qüdrətimiz artdıqca, Azərbaycan günü-gündən çiçəklənir, abadlaşır, şəhərlərimiz, qəsəbə və kəndlərimiz öz simasını tamamilə dəyişib yeniləşir, infrastruktur layihələri, regional proqramlar müvəffəqiyyətlə həyata keçirilir. Dövlət başçısı cənab İlham Əliyev əməli fəaliyyəti ilə ümummilli liderin Azərbaycan dövlətinin və müstəqilliyimizin möhkəmlənməsinə, xalqımızın rifah halının daha da yüksəlməsinə xidmət edən siyasi xəttini uğurla aparır və ölkəmiz də daha işıqlı və firavan gələcəyə doğru inamla addımlayır. Bu parlaq nailiyyətlər isə heç də təsadüfən qazanılmamışdır. Bütün uğurlarımızın təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən işlənib hazırlanmış və uzaq gələcəyə hesablanmış fundamental inkişaf və uğurlu neft strategiyası ilə qoyulmuşdur. Mübaliğəsiz demək olar ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsi Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasına gətirib çıxarmışdır. Hazırda Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu getdikcə artır. Bu da, öz növbəsində, ölkəmizin beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə güclü təsir göstərir. Dərin mənəvi, mədəni, elmi, iqtisadi potensiala, əlverişli coğrafi-siyasi mövqeyə malik Azərbaycan həm də özünün zəngin təbii sərvətləri ilə məşhurdur. Bu sərvətlər içərisində neft əsas yer tutur. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasət nəticəsində bu gün neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir.

Azərbaycan neft sənayesi özünün 150 illik tarixi ərzində böyük inkişaf yolu keçmişdir. Lakin Azərbaycan xalqı yalnız XX əsrin sonlarında müstəqillik qazandıqdan sonra bu sərvətlərdən tam bəhrələnmək imkanı qazanmışdır. Bu imkanı reallığa çevirən isə Heydər Əliyev dühasıdır. 1993-cü ilin təlatümlü iyun günlərində - Azərbaycanın dövlət müstəqilliyi üçün ciddi təhlükə yarandığı bir dövrdə xalqının çağırışına səs verərək xilaskarlıq missiyasını üzərinə götürən ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə qayıtdı. Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi və iqtisadi həyatında taleyüklü dəyişikliklərin başlanğıcını qoydu. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Ölkənin iqtisadi dirçəlişinə nail olmaq məqsədilə ulu öndər xalqımızın əvəzsiz sərvəti olan neft amilindən məharətlə istifadə etdi. Azərbaycanın o zamankı məhdud maliyyə imkanları ilə neft-qaz yataqlarının mənimsənilməsinin, bu əvəzsiz təbii sərvətin dünya bazarlarına çıxarılmasının çətinliyini nəzərə alan Heydər Əliyev məsələnin həll yolunu Qərb şirkətləri ilə milli maraqlara söykənən əməkdaşlığın qurulmasında gördü və bütün geostrateji çətinliklərə baxmayaraq, qısa bir müddətdə bu möhtəşəm konsepsiyanı gerçəkləşdirməyə nail oldu.

Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə qoca Qafqazın bu bölgəsində yeni siyasi bir dövr, yeni təfəkkür mərhələsi başlandı. Məhz bu yeni dövr Azərbaycanın XXI əsrə hüquqi, demokratik dövlət kimi daxil olmasına əsaslı təminat yaratdı. Heydər Əliyevin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, qurtuluş deməkdir. Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı.

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edildi, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas oldu, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazandı. Ulu öndər Heydər Əliyevin xalqımız qarşısında xidmətləri o qədər böyük və zəngindir ki, bu, zaman-zaman tədqiqatlar mövzusu olacaq. Ümummilli liderimizin fəaliyyəti Azərbaycanın dünəni, bu günü və gələcəyinə hesablanmış fəaliyyətdir. Ulu öndərimiz keçmişə istinad edərək bu günümüzü necə qurmağı və gələcəyimiz üçün hansı işlər görülməsinin nümunəsini bizə göstərdi. Ümummilli liderimiz Heydər Əliyevin yaradıcısı olduğu yeni neft strategiyasının inkişafında müstəsna rolu olmuşdur. “Əsrin müqaviləsi”nin imzalanmasına həsr olunmuş təntənəli mərasimdə ümummilli liderimiz Heydər Əliyev demişdir: **“Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir... Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq”.**

Bu gün Azərbaycan dünyada həm zəngin mədəni-tarixi dəyərlərə malik, həm də böyük neft və qaz ehtiyatlarına sahib ölkə kimi tanınır. Ölkəmizin iqtisadi, sosial və hərbi cəhətdən inkişafının əsasında güclü və sarsılmaz siyasi iradə və təbii sərvətlərimizdən düzgün istifadə dayanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdriklik və uzaqgörənliklə, dərin inam və qətiyyətlə, məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti və bu siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən yüksək peşəkarlıqla davam və inkişaf etdirilməsi nəticəsində neft onun əsl sahibi olan Azərbaycan xalqına xidmət edərək ölkəmizin siyasi müstəqilliyinin, iqtisadi tərəqqisinin, insanlarımızın rifahının təmin edilməsinə yönəldilmişdir. Sosial-iqtisadi inkişaf tempinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada dayanan, beynəlxalq birliyin tamhüquqlu üzvü olan müstəqil Azərbaycan Respublikası Heydər Əliyev dühasının şah əsəridir. Güclü, getdikcə daha da qüdrətlənən dövlətimizin qazandığı bütün uğurlar üçün biz dünya şöhrətli siyasi xadim Heydər Əliyevə borcluyuq.

1994-cü il sentyabrın 20-də Azərbaycanın paytaxtı Bakı şəhərində möhtəşəm bir müqavilə imzalanmışdır. Bu müqavilədə Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Cıraq” və “Günəşli” yataqlarının işlənməsi və neft hasilatının pay bölgüsü haqqında” Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə tanınmış neft şirkətləri arasında sazişin imzalanması baş tutmuşdur. Bu tarixi, siyasi və beynəlxalq əhəmiyyətli müqavilənin 25-ci ili tamam olur. Bu tarixi hadisə xalqımızın yaddaşında əbədi yaşayacaq. Çünki məhz bu tarixi addımla müstəqilliyini bir daha sübut edən Azərbaycan öz sərvətlərinə tam sahib olduğunu bütün dünyaya nümayiş etdirib. Elə ilk günlərdən danışıqlar prosesində çətinlik və maneələr də var idi. Həmin anları cənab İlham Əliyev belə xatırlayır: **“Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin maraqlarını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu, sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə xələl gətirəcək. Başqa sözlə, biz heç cür heç bir səhvə yol verə bilmərik”.** Çoxsaylı çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli mənafelərinə uyğun hazırlandı.

“Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan “Əsrin müqaviləsi”nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi.

Neft strategiyasının ideya mənbələrindən, başlıca konseptual prinsiplərindən danışarkən ulu öndərin Azərbaycan neft sənayesinin zəngin tarixinə, önəmli nailiyyətlərinə, şanlı ənənələrinə istinad etməsi ilk növbədə qeyd olunmalıdır. Ulu öndərin özünəməxsus siyasi müdriklik lə seçdiyi bu yol həm də gənc Azərbaycan dövlətinin geosiyasi mövqelərinin möhkəmlənməsinə yönəlmişdi. Xalqımızın müasir tarixində yeni neft strategiyası kimi özünə əbədi yer qazanmış həmin konsepsiyanın məqsəd və məramı xarici sərmayədarların köməyi ilə neft-qaz sektorunun gücləndirilməsi, yataqların birgə istismar olunması, hasil ediləcək xam neftin dünya bazarlarına çıxarılması və əldə olunacaq böyükhəcmli maliyyə vəsaitlərini iqtisadiyyatın digər sahələrinə yönəltmək yolu ilə sosial-siyasi dirçəlişə nail olunması idi.

Xalqımızın xoşbəxt gələcəyi, işıqlı sabahı naminə inkişaf və tərəqqi konsepsiyasına çevrilmiş bu strateji kurs ölkə iqtisadiyyatının gücləndirilməsinə, nüfuzlu xarici şirkətlərlə milli maraqlara söykənən səmərəli əməkdaşlığın qurulmasına, müasir texnologiyaların, yeni nəsil avadanlıqların neft sənayesinə tətbiqinə imkan yaratdı. O zaman xarici investorların, xüsusilə transmilli neft şirkətlərinin Azərbaycana gəlişi, bura sərmayə qoyması olduqca riskli bir iş idi. Çünki Azərbaycan “Əsrin müqaviləsi”nin imzalandığı ərəfədə - 1994-cü il mayın 12-də atəşkəsə imza atsa da, müharibə vəziyyətində idi, ölkədə tam siyasi sabitlik yaranmamışdı. Azərbaycanın müstəqilliyini istəməyən bir sıra yerli və xarici qüvvələr respublikamızda xaos, qarışıqlıq və anarxiya yaratmaq üçün bütün vasitələrdən, hətta dünyanın bir nömrəli bəlasına çevrilmiş terrordan belə çəkinmirdilər. Bütün bunlara baxmayaraq, Azərbaycanda siyasi sabitliyə və əlverişli biznes mühitinə tam zəmanət alan dünyanın transmilli şirkətləri “Əsrin müqaviləsi”nə imza atmaq məqsədilə ölkəmizə gəldilər. “Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşməsi müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən düzgün neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür. Azərbaycanın neft sənayesinin, ümumiyyətlə, iqtisadiyyatının inkişafında yeni dövrün əsasını qoyan “Əsrin müqaviləsi”nin imzalanması ilə başlamış iş XXI əsrdə Azərbaycanın dinamik inkişaf yolunu müəyyən etdi. “Əsrin müqaviləsi” 1994-cü il sentyabrın 20-də Bakıdakı “Gülüstan” sarayında imzalanmışdır. Dənizin dərinliyində yerləşən “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının işlənilməsi və məhsulun pay bölgüsü haqqında 400 səhifəlik bu müqavilə 4 dildə tərtib edilmişdir. “Əsrin müqaviləsi”ndə 8 ölkədən (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 şirkət (Amoko, BP, MakDermott, Yunokal, ARDNŞ, LUKoyl, Statoyl, Ekson, Türkiyə petrolları, Penzoyl, İtoçu, Remko, Delta) iştirak edirdi. Bu müqavilə sonradan 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 27 sazişin imzalanmasına yol açdı.

Bu inamın, bu əminliyin qarantı Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev zəkası oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbirincə desək, “müasir dünyada neft məqsəd deyildir, o, yalnız həm iqtisadi, həm də siyasi səciyyəli qlobal problemlərin həlli üçün bir vasitədir”. Ümummilli liderimiz məhz bu vasitədən yararlanmaqla Azərbaycanı asılı yox, öz istəyini diqtə edən ölkələrdən birinə çevirə bildi. Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilən bu müqavilənin mahiyyətində, heç şübhəsiz, Heydər Əliyev dühasının təntənəsi durudu. Azərbaycanın müstəqilliyinin, demokratik bir ölkə kimi sivil dünyaya inteqrasiya olunmasının xeyli dərəcədə neft müqavilələrinin reallaşmasından asılı olduğunu sübut edən ümummilli liderimiz bununla da respublikamızın azad və müstəqil gələcəyinin təsdiqinə təminat aldı. Çünki iri neft şirkətlərinin ölkəmizə gəlməsi yalnız sərmayə axını deyildi. Bu həm də dünyanın ölkəmizə inamı idi. Respublikamıza bu inamı məhz Heydər Əliyev qazandırdı. “Əsrin müqaviləsi”nin imzalanması ilə Xəzər dənizi hövzəsində və bütün postsovet məkanında beynəlxalq əməkdaşlığın bünövrəsi qoyuldu. Bu saziş regionda digər qlobal layihələrin gerçəkləşdirilməsi üçün də imkan yaratdı, Xəzərdə maraqları təmin olunmuş bir çox aparıcı Qərb dövlətlərinin Azərbaycanla bütün sahələrdə genişmiqyaslı əməkdaşlığa marağını artırdı, beynəlxalq maliyyə qurumları ilə münasibətlərdə keyfiyyətcə tamamilə yeni bir mərhələnin əsasını qoydu.

Bütün dünyada qədim neft diyarı kimi tanınmış Azərbaycanda neftin sənaye üsulu ilə hasilatı hələ XIX əsrin ortalarından başlanmışdır. 1848-ci ildə Bakıda, Bibiheybət yatağında qazılmış quyudan vurmuş neft fontanı Azərbaycanda “qara qızılın” sənaye üsulu ilə çıxarılmasının əsasını qoymuşdur. Artıq 1899-cu ildə Azərbaycan neft hasilatı və emalı üzrə dünyada birinci yerə çıxmış, dünya neft hasilatının yarısını vermişdir. İkinci Dünya müharibəsi illərində Sovet İttifaqında çıxarılan neftin 75 faizini verən Azərbaycan cəbhəni yanacaqla təmin edərək alman faşizmi üzərində qələbədə böyük rol oynamışdır.

1949-cu ildə açıq dənizdə, Bakı şəhərindən 100 kilometr məsafədə o zaman üçün nadir yataq sayılan Neft Daşlarında vuran fontan dənizdə neftçıxarmanın yeni mərhələsinin başlanğıcını qoymuşdur. Azərbaycan dünyada ilk dəfə olaraq açıq dənizdə neft çıxarmağa başlamışdır. XX əsrin 70-80-ci illəri Azərbaycan neft sənayesinin böyük nailiyyətləri ilə yadda qalaraq onun inkişafı, maddi-texniki bazasının möhkəmlənməsi illəri olmuşdur. Həmin illərdə respublikamızın neft sənayesinin bütün uğurları Azərbaycana rəhbərlik etmiş Heydər Əliyevin adı ilə sıx bağlıdır.

Neftdən əldə edilən gəlirlər hesabına bu gün ölkəmizin bütün sahələrində sürətli inkişafa nail olunmuşdur. Həmin gəlirlərin indiki və gələcək nəsillərin firavan həyatının təminatına yönəldilməsi üçün ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycan Respublikasının Dövlət Neft Fondu təsis edilmişdir. Ötən müddətdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sürətli sosial-iqtisadi inkişafına təkan verən bir sıra məqsədli Dövlət proqramları məhz Dövlət Neft Fondunun vəsaitləri hesabına həyata keçirilmişdir. Neftdən əldə edilən gəlirlər hesabına ölkə iqtisadiyyatının şaxələndirilməsini iqtisadi siyasətin prioriteti elan edən Azərbaycan dövləti hazırda qeyri-neft sektorunun inkişafı sahəsində uğurlu nəticələr qazanır. Ölkəmizdə əldə edilən sosial-iqtisadi uğurların təməlini isə məhz ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası təşkil edir. Zəngin tarixi ənənələrə malik neft sənayemiz əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində daha uca zirvələr fəth edəcək, öz şərəfli salnaməsinə yeni-yeni zəfərlər yazacaqdır.

2017-ci il sentyabrın 14-də Bakıdakı Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması ölkə ictimaiyyəti tərəfindən böyük razılıq hissi ilə qarşılandı. Diqqəti çəkən əsas məqam odur ki, sazişin yeni şərtləri Azərbaycanın maraqlarına daha artıq dərəcədə uyğun gəlirdi. Bunu Prezident İlham Əliyev də öz çıxışında qeyd etdi. Dövlət başçısı bildirdi ki, belə bir sazişin imzalanması ölkəmizin həyatında çox əlamətdar və tarixi bir hadisədir və bununla “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövr başlayır. “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilə qədər uzadılmışdır.

Bu cür sazişlər Azərbaycanın artmaqda olan iqtisadi qüdrətini, onunla birlikdə dünyadakı siyasi çəkisini daha da artırır. Bunu Azərbaycan Prezidenti də qeyd edərək söylədi ki, əgər 1994-cü ildə ulu öndər Heydər Əliyevin gərgin zəhməti nəticəsində “Əsrin kontraktı” imzalanmasaydı, Azərbaycanın bugünkü durumunu təsəvvür etmək çətin olardı. 1994-cü ildə ümummilli liderin təşəbbüsü ilə “Əsrin kontraktı”nın imzalanması, ölkəmizə böyük sərmayə qoyuluşunun cəlb edilməsi tarixi nailiyyətdir. O gündən 25 il keçir. Bu illər ərzində Azərbaycan sürətlə inkişaf etmişdir. Bu gün ölkəmiz dünyada ayaq üstə möhkəm dayanan ölkə kimi tanınır. Bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycan beynəlxalq aləmdə çox yüksək və müsbət reputasiyaya layiq olan ölkədir. Təsadüfi deyil ki, bir neçə il bundan əvvəl 155 ölkə Azərbaycanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçmişdir və bu da beynəlxalq aləmin bizə olan rəğbətinin, hörmətinin, dəstəyinin əlaməti idi.

Ölkəmizdə gündən-günə vüsət alan, məramı xalqımızın rifah halının daha yüksəlməsi, Azərbaycanın inkişaf etmiş ölkələr sırasında layiqli yerinin təmin edilməsi olan genişmiqyaslı quruculuq işləri Heydər Əliyev neft strategiyasının dünənki, bugünkü və gələcək təntənələrinin bariz nümunəsidir. “Əsrin müqaviləsi” ilə əsası qoyulmuş milli neft strategiyasının uğurlarının nəticəsi olaraq Azərbaycanın regionun lider dövləti, eləcə də regional və qlobal iqtisadi layihələrin aparıcı iştirakçılarından biri kimi tanınmasına şərait yaranmışdır. Bu gün ölkəmizdə əldə edilən bütün iqtisadi uğurların başlanğıcında məhz milli neft strategiyası, bu strategiyanın ilk şanlı səhifəsini və təməl daşını isə ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu “Əsrin müqaviləsi” təşkil edir.

Göründüyü kimi, həm ulu öndərin təşəbbüsü və təşkilatçılığı ilə 25 il əvvəl imzalanan “Əsrin müqaviləsi”, həm də Prezident İlham Əliyevin rəhbərliyi ilə imzalanan yeni “Əsrin müqaviləsi” Azərbaycan xalqının rifah halının yüksəlməsinə, dövlətimizin beynəlxalq nüfuzunun və siyasi mövqelərinin möhkəmlənməsinə xidmət edir.

Azərbaycan iqtisadiyyatı ümummilli lider Heydər Əliyevin yaratdığı təməl üzərində hərtərəfli və dinamik inkişaf edir. Güclü, qüdrətli Azərbaycan quruculuğu yolunda davam etdirilən qlobal neft-qaz və nəqliyyat layihələri, Dövlət proqramları da ən ümdə məqsədə - ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edir. Bu isə onu deməyə əsas verir ki, Azərbaycan dövlətinin iqtisadi qüdrəti bundan sonra da artacaq, iqtisadiyyat sürətlə inkişaf edəcək, xalqımızın maddi-rifahı daha da yaxşılaşacaqdır. ■